# *Səfir:* "COP29 vasitəsilə qlobal problemi həll etmək üçün Azərbaycanla birlikdə səylər göstərməkdən qürur duyuruq"

**"Ölkələrimiz arasında diplomatik əlaqələr 1992-ci il sentyabrın 1-də qurulub. O vaxtdan etibarən biz iki ölkənin rəhbərliyi ilə ikitərəfli münasibətlərdə çoxsaylı nailiyyətlərin, inkişafın, uğurların şahidi olmuşuq".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında diplomatik əlaqələrin qurulmasının 32-ci ildönümü münasibətilə keçirilən tədbirdə BƏƏ-nin ölkəmizdəki səfiri Məhəmməd Əl Bluşi söyləyib.

Səfir iki ölkə arasında imzalanmış çox mühüm sənəd - Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumunu xüsusi vurğulayıb.



O diqqətə çatdırıb ki, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin möhkəm iradəsi sayəsində dostluq-qardaşlıq münasibətlərimiz möhkəm təməl üzərində inkişaf edir.

BƏƏ-nin iri şirkətləri olan "Masdar" və ADNOC tərəfindən Azərbaycanda mühüm layihələrin həyata keçirildiyini qeyd edən səfir Məhəmməd Əl Bluşi bildirib ki, COP29 vasitəsilə qlobal problemi - iqlim dəyişikliyini həll etmək üçün birlikdə səylər göstərməkdən qürur duyuruq. "BƏƏ bütün təcrübəsi ilə Azərbaycanı dəstəkləyir. Bir daha əziz Azərbaycanı bu mühüm beynəlxalq tədbirə evsahibliyi etməsi münasibətilə təbrik edirik", - deyə diplomat vurğulayıb.

Azərbaycan.- 2024.- 5 sentyabr (№ 192).- S.9.